Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Böyük qayıdış yeni inkişaf mərhələsinin başlanğıcına çevrilir...

## İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"

**İşğaldan azad edilən ərazilərə böyük qayıdış prosesi artıq daha dinamik xarakter almağa başlayıb. İndi demək olar ki, hər gün azad olunan ərazilərə yeni köç karvanı yola salınır. Elə son bir həftə ərzində bu xüsusda baş verən hadisələr də qeyd edilənlərin daha bir sübutudur. Bütün bunlar bir daha təsdiq edir ki, 2020-ci ildə Azərbaycanın Vətən müharibəsində əldə etdiyi zəfər ölkənin milli inkişaf gündəliyində böyük dönüş nöqtəsi yaradıb. Üç onillik ərzində Ermənistanın işğalı altında olan Qarabağ və Şərqi Zəngəzur torpaqlarının azad edilməsi yalnız ərazi bütövlüyünün bərpası deyil, həm də ölkənin sosial-iqtisadi sistemini yenidən qurmaq, regionda müasir şəhərsalma nümunəsi yaratmaq üçün tarixi fürsət açıb. Bu baxımdan, "Böyük Qayıdış" proqramı strateji dövlət planlamasının ən mühüm istiqamətlərindən birinə çevrilib və qeyd olunduğu kimi son vaxtlarda bu prosesin daha da sürətləndiyi müşahidə olunur.**

### Qarabağ və Şərqi Zəngəzurun müxtəlif yaşayış məntəqələrinə yola salınan köç karvanları....

Hazırda Qarabağ və Şərqi Zəngəzurun müxtəlif yaşayış məntəqələrinə qayıdış sürətlə davam edir. Məsələn, bu günlərdə Xocavənd rayonuna yola salınan növbəti köç karvanı Qırmızı Bazar qəsəbəsinə çatıb, sakinlərə mənzillərin açarları təqdim olunub. Bu köçlə qəsəbəyə qayıdan ailələrin sayı 67-yə və ya 254 nəfərə çatıb.

Zəngilan rayonunun Məmmədbəyli kəndinə isə 33 ailə və ya 177 nəfər köçürülüb. Ağdam rayonuna yola salınan növbəti köç karvanı Xıdırlı kəndinə çatıb, sakinlərə mənzillərin açarları təqdim olunub. Bu köçlə Xıdırlı kəndinə qayıdan ailələrin sayı 568-ə və ya 2243 nəfərə çatıb. Cəbrayıl rayonunun Horovlu kəndinə 38 ailə və ya 139 nəfər köçürülüb. Kəlbəcər şəhərinə 27 ailə və ya 112 nəfər köçürülüb. Xocalı rayonuna yola salınan növbəti köç Xanyurdu kəndinə çatıb. Qeyd edək ki, bununla Xanyurdu kəndinə qayıdan ailələrin sayı 110-a və ya 378 nəfərə çatıb. Xocalı rayonunun Təzəbinə və Xanyurdu kəndlərinə növbəti köç karvanları yola salınıb.

Bütün bunlar sadəcə son bir həftə ərzində olan köçlərdir. Köç edənlər ölkənin müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir. Doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar. İşğaldan azad olunmuş rayonlarda əvvəlki kimi təhlükəsizlik və infrastrukturun əsas elementlərinin qurulması prioritet müəyyən edilib. Minatəmizləmə işlərinin genişlənməsi böyük qayıdışın sürətini birbaşa şərtləndirən amillərdən biridir. Minadan təmizlənmə prosesi həm insanlar üçün təhlükəsiz gələcəyin təminatı, həm də tikinti və şəhərsalmanın başlanması üçün zəruri olan ilkin şərtdir. Bu sahəyə ayrılan resursların artırılması və beynəlxalq tərəfdaşlıq çərçivəsində prosesin daha effektiv təşkili qayıdışın sürətlənməsinə ciddi təsir göstərib. Onu da bir daha qeyd edək ki, azad olunmuş ərazilərdə "ağıllı şəhər" və "ağıllı kənd" konseptlərinin tətbiqi Azərbaycanın müasir inkişaf modelinə uyğun yenilikçi yanaşmaların göstəricisidir. Zəngilanın Ağalı kəndi bu baxımdan nümunəvi layihə kimi dəyərləndirilir. Burada enerji səmərəliliyi, rəqəmsal idarəetmə, "yaşıl enerji" həlləri və ekoloji balansın qorunması prinsipləri əsasında



qurulan infrastruktur gələcək qayıdış məntəqələri üçün yeni standartların əsasını qoyub. Bu model əsasında Füzuli, Laçın, Cəbrayıl və Kəlbəcərdə də genişmiqyaslı quruculuq işləri aparılır.

### Əhalinin məşğulluq imkanları, sosial təminatı xüsusi diqqət mərkəzindədir

Böyük Qayıdışın sürətlənməsi sosial proqramların genişləndirilməsi ilə də sıx bağlıdır. Dövlət tərəfindən Qarabağa qayıdan və qayıdacaq əhalinin məşğulluq imkanları, sosial təminatı, təhsil və səhiyyə xidmətlərinə çıxışı xüsusi diqqət mərkəzində saxlanılır. Yeni məktəblərin, xəstəxanaların, icra strukturlarının və xidmət mərkəzlərinin tikilməsi regionda həyatın normal ritminin bərpasını təmin edir. Eyni zamanda, kənd təsərrüfatı və sənaye zonalarının yaradılması yerli əhalinin uzunmüddətli iqtisadi rifahına yönəlmiş əsas addımlardandır.

Qayıdış prosesinin sürətlənməsini şərtləndirən əsas məqamlardan biri də regionun "yaşıl enerji zonası" elan edilməsi və bu istiqamətdə layihələrin genişləndirilməsidir. Su, külək və günəş enerjisi potensialı Qarabağın enerji baxımından tam müstəqil və ekoloji təmiz məkan kimi formalaşmasına imkan verir. Bu, regionu Azərbaycanın enerji strategiyasında xüsusi rol oynayan zonaya çevirir və xarici sərmayəçilərin marağını artırır. Bütün bunlar isə həm iqtisadi inkişafı artırır, həm də qayıdışa əlavə stimul yaradır. Böyük qayıdış yalnız fiziki infrastrukturun bərpası deyil, həm də mədəni irsin dirçəldilməsi ilə müşayiət olunur. İşğal illərində dağıdılmış tarixi abidələrin bərpası, mədəniyyət mərkəzlərinin qurulması Qarabağın Azərbaycan mədəniyyətindəki əhəmiyyətini yenidən canlandırır. Şuşanın mədəniyyət paytaxtı kimi inkişaf etdirilməsi, Cıdır düzündə, Şuşa qalasında və digər tarixi məkanlarda keçirilən beynəlxalq tədbirlər regionun dirçəlişinin mühüm göstəricisidir.

Prosesin sürətlənməsində beynəlxalq əməkdaşlıq da mühüm rol oynayır. Qarabağın bərpasında müxtəlif ölkələr və beynəlxalq təşkilatlarla tərəfdaşlıq, investisiyaların cəlbi və müasir texnologiyaların tətbiqi layihələrin daha qısa müddətdə reallaşdırılmasına kömək edir. Azərbaycan hökumətinin şəffaf idarəetmə mexanizmləri və strateji planlaşdırması isə bu əməkdaşlığın genişlənməsinə əlverişli mühit yaradır. Bununla da, işğaldan azad olunmuş ərazilərə böyük qayıdış prosesinin sürətlənməsi Azərbaycan dövlətinin siyasi iradəsi, iqtisadi potensialı və xalqın yenidən Qarabağda yaşamaq əzmi ilə sıx bağlıdır. Hazırda regionda həyata keçirilən genişmiqyaslı layihələr yalnız bugünkü ehtiyaclara cavab vermir, həm də gələcək nəsillər üçün müasir, təhlükəsiz və yüksək həyat standartlarına malik bir məkanın formalaşdırılmasına xidmət edir. Qarabağın dirçəlişi təkcə bir regionun deyil, bütövlükdə Azərbaycanın inkişaf tarixində yeni mərhələnin başlanğıcıdır.

***Tahir TAĞIYEV***

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.***